# 1

– Özümü özgəsi kimi hiss edirəm, – deyə pıçıldayan Annanın sözünə diqqət verən olmadı. Matronalar[1] onun yan-yörəsində vurnuxur, biri duvağını, o biri lentini düzəldir, digəri bantını dartışdırır, xırdavatçı qadın ətəyini qısaldır, yerölçənin dul arvadı isə ayaqlarına naxışlı tikmə ayaqqabılar keçirirdi. Qız hərəkətsiz dayanmışdı və hiss edirdi ki, yavaş-yavaş nəsə bir əşyaya çevrilir – qonşuların diqqətini çəkən əyləncəli bir əşyaya.

O, çardağın pəncərəsindən içəri düşən çəpəki günəş şüasına baxıb gülümsədi. Qızılı şüa çardağın yarımqaranlığını pozur, oranı şəfəqin işıqlatdığı kiçik bir ağaclığa bənzədirdi, sadəcə, ayıdöşəyilərinin yerində paltar səbətləri, xallı maralların əvəzinə isə qızlar vardı. Otaqdakı aramsız səs-küyə baxmayaraq, Anna içərini bürüyən səssizliyi eşidirdi. Bu, qəribə, sakit, qatı səssizlik haradansa uzaqlardan gəlir, sözgəzdirənlərin çərənləmələri arasından sıyrılıb, nəsə bir ismarış gətirirdi.

[1] Yaşlı, hörmətli qadın – tərc.

Anna meşşan qadınlardan birinin onu eşitməsi ümidiylə başını yana çevirdi, amma ona baxan yox idi. Arvadların onu bəzəmə cəhdlərinə dözmək zorunda qaldığından "Mən özümü özgəsi kimi hiss edirəm" sözlərini ucadan deyil, elə pıçıltıyla dedi ki, dediyinə özü də inanmadı.

O bundan artıq neyləyə bilərdi ki? Bir neçə saatdan sonra ərə gedəcəkdi, amma yuxudan durandan bəri qönçələri açılmağa vadar edən yazın gəlişindən başqa heç nə duymurdu. Təbiət onu adaxlısından daha çox çəkirdi, elə güman edirdi ki, xoşbəxtlik bayırdadır. O, dovşan kimi hansısa ağacın altında gizlənmiş bu xoşbəxtliyin burnunun ucunu görür, varlığını, çağırışını, səbirsizliyini hiss edirdi... Birdən ayaqlarında bir gicişmə duydu, otların üstündə gəzmək, ağacları qucaqlamaq, tozcuqlara bulaşmış havanı ciyərlərinə çəkmək keçdi ürəyindən. Ondan ötrü bu günün ən önəmli olayı bir azdan baş verəcək toy deyil, elə günün özü idi – sərin, məftunedici, mərhəmətli gün! Filipə qovuşmaq arzusu bu əzəmətli çölləri, meşələri öz ağuşuna alan apreli, ququ quşlarının çığırtılarını, qanqalları doğuran gücün qabağında sönük görünürdü. Qız toy hazırlıqları gedən bu otaqdan baş götürüb qaçmaq, onu bəzəyən əllərdən qurtulmaq, çılpaqlanıb lap yaxınlıqdakı çaya atılmaq istəyirdi.

İşıq şüası pəncərə çərçivəsini keçib, pərdənin əhənglənmiş kələ-kötür divara düşən kölgəsiylə toqquşurdu. Anna bu valehedici şüanı narahat eləməyə heç vaxt ürək etməz, hətta "Evdə yanğın var!!!" desəydilər də, oturduğu kətildə qımıldanmazdı.

Bədənindən bir vicvicə keçdi.

– Sən nəsə dedin? – xalası qızı İda soruşdu.

– Yox, heç nə demədim.

– Sən onu xəyal edirsən, düzdürmü?

Anna başını aşağı saldı.

Bu, İdanın şübhələrini təsdiqlədi, şəhvətli düşüncələrə dalan qızdan qulaqbatıran bir qəhqəhə qopdu. Son həftələr o öz paxıllığı ilə mübarizə aparır, ona üstün gəlməyə nə qədər çalışsa da, yalnız içindəki xoşagəlməz duyğunu şən istehzaya çevirəndə buna nail olurdu.

– Anna düşünür ki, artıq Filipin qucağındadır! – o, özəl olaraq heç kimə üz tutmadan, boğuq səslə dedi. – İlk gecə hərarətli olacaq!

Qadınlar deyindilər: bəziləri Annanı dəstəklədi; bəziləri şitliyinə görə İdanı danladı.

Qapı qəfil açıldı.

Annanın xalasıyla nənəsi səhnəyə çıxırmış kimi otağa atıldılar.

– Mənim balam, axır ki, ərinin görəcəyi şeyi indi sən də görəcəksən, – onlar bir ağızdan ucadan dedilər.

Və naxışlı fil sümüyündən hazırlanan iki qutunu xəncəri qınından çıxarırmış kimi qara donlarının qırışları arasından çıxarıb, ehtiyatla açdılar. Hər iki qutunun içində dairəvi gümüş çərçivəli güzgü vardı. Onların hərəkətlərini heyrət pıçıltıları izləyir, içəridəkilər qeyri-adibir görüntünün şahidi olduqlarını düşünürdülər. Güzgü onların gündəlik həyatda çox tez-tez rastlaşdıqları bir şey deyildi. Əgər o kimdəsə tapılsaydı belə, bu, kələ-kötür metaldan cilalanmış, qalaylanmış, tərləmiş, bulanıq, əyri-üyrü, sönük bir

şey olardı. Gerçəkliyi bütün cizgiləriylə, parlaq çalarlarla tərtəmiz əks etdirən bu güzgülərsə şüşədən hazırlanmışdı.

Şən nidalar eşidildi.

İki sehrbaz qadın başlarını aşağı salıb, özlərinə olan iltifatı qəbul elədi və sonra işə başladı. Qodelyeva xala Annanın qabağında, Fransiska nənə arxasında dayandı. Hər ikisi irəli uzatdıqları əllərində güzgünü bir qalxan kimi tutmuşdu. Gördükləri işin bütün önəmini yaxşı dərk edən qarılar neyləmək lazım gəldiyini qıza təntənəli surətdə bəyan elədilər:

– Qabaq güzgüyə daldakının əksi düşür. Beləcə, sən özünü həm arxa, həm də yandan görə bilərsən. Kömək elə, düzgün dayanaq.

Paxıllığını gizləməyən İda onlara yaxınlaşdı.

– Bu güzgülər sizdə haradandır?

– Onları bizə qrafinya verib.

Hamı bu uğuru alqışladı. Belə xəzinə ancaq əsil-nəcabətli bir xanıma məxsus ola bilərdi və tacirlər bu cür şeyləri yoxsullara heç vaxt göstərməzdilər.

Anna yumru güzgüdə özünün təəccüb ifadə eləyən üzünə baxdı, zərif saç düzümünün altında yastılanmış sarı, buruq tellərinə göz gəzdirdi, necə uzun boynu, zərif qulaqları olduğunu guya ilk dəfə görürmüş kimi öz-özünə heyrət elədi. Ruhuna əcaib bir duyğu hakim kəsilmişdi. Güzgüdə xoşagəlməz bir şey əks olunmasa da, gördükləri ona yad gəlir, elə bil özünə yox, özgəsinə baxırdı. Onun üzdən, yandan, arxadan görünən əksi sanki həm özünün, həm də kiminsə başqasının idi.

– Sən razısan?

– Hə, əlbəttə! Təşəkkür edirəm.

Şöhrətpərəstlikdən uzaq Anna xalasının sualına cavab verəndə onun güzgünü nəzərdə tutduğunu düşündü.

– Sən hələ də anlamırsan ki, bəxtin necə gətirib? – Fransiska nənə ciyildədi.

– Əlbəttə, anlayıram, – Anna etiraz elədi. – Bəxtim gətirib ki, sizlər varsınız.

– Yox, ay qız, mən Filipi deyirəm. Bu zəmanədə onun kimisini tapmaq müşkül məsələdir.

Qonşular razılıq əlaməti olaraq başlarını ağır-ağır yellədilər. İndi Brüqqedə kişilər nadir tapıntı sayılırdı. Bu vaxta kimi şəhərdə heç vaxt belə erkək qıtlığı olmamış, kişilər elə bil qəhətə çəkilmişdi. Heç bilirsiniz, onlar neçə nəfər qalmışdı? İki, bəlkə də, üç qadına vur-tut bir kişi düşürdü. Yazıq Flandriya güclü cinsin çatışmazlığı kimi ağlasığmaz bir olaya ürcah olmuşdu. Cəmi bir neçə on ilə Şimali Avropada kişi xeylağı o qədər azalmışdı ki, bu artıq təşviş doğururdu. Qadınların bəziləri subay yaşamaqla barışmalı və ya monastıra getməli olmuş, bəziləri ana olmaqdan vaz keçmiş, ən ürəkliləri isə korluq çəkməmək üçün kişi işlərinə qurşanmış, dülgərlik, dəmirçilik eləməyə başlamışdı.

Rəfiqəsinin səsində məzəmmət duyan xırdavatçı qadın onu sərt baxışlarla süzdü.

– Allah belə məsləhət görüb!

Kafirlikdə suçlanacağından qorxub titrəyən Fransiska nənə sözlərinə düzəliş verdi

– Təbii ki, bizə bu sınağı göndərən Allahdır! Kişilərimizi səlib yürüşlərinə çağıran da Allahdır. Onlar kafirlərlə Allah naminə döyüşüb həlak olurlar. Onları dənizdə, yol-

da, meşələrin dibində öldürən də Allahdır. Onların canını iş başında alan da Allahdır. Onları bizdən əvvəl öz yanına çağıran da Allahdır. Bizi təkbaşına, ərsiz qoyan da Allahdır.

Fransiska nənənin Allaha olan nifrətini Anna sezdi. Qarının sözlərində tapınmaqdan daha çox dəhşət duyulur, sanki o, Allahı talançı, qatil, cəllad sayırdı. Amma Anna düşünmürdü ki, Allah belədir və öz bəndələriylə nənəsi deyən kimi davranır.

– Səninsə, mənim balam, – dul qadın yenidən dilləndi, – keçmişdəki qadınlar kimi bir həyatın olacaq – bir ərin, çoxlu uşaqların. Sənin bəxtin gətirib. Üstəlik, sənin Filipin əclaf deyil... Elə deyilmi, xanımlar?

Qadınlar qarının sözlərini başlarını tərpədib gülməklə təsdiqlədilər. Onların bəziləri utancdan, bəziləri isə sevincdən gülürdü – necə olsa da, belə bir önəmli məsələdə kimsə onların fikriylə maraqlanırdı. On altı yaşlı Filip sağlam bir flamand gənci idi: uzun ayaqları, nazik beli, enli çiyinləri, əsmər dərisi, qoyun yunu kimi gur saçları vardı.

Qodelyeva xala ucadan dedi:

– Xəbəriniz varmı, bəy bu saat küçədə durub gəlini gözləyir?

– Eləmi?!!

– O bilir ki, biz gəlini bəzəyirik. Yazıq indi, yəqin ki, qaynayır, özü də lap suyun ocaqda qaynadığı kimi. Əgər səbirsizlikdən ölmək olsaydı, bəlkə də, o, çoxdan ölmüşdü.

Anna pəncərəyə yaxınlaşdı. Baharı içəri buraxmaq üçün artıq çərçivələrdən yağlı kağızları çıxarmışdılar. Qız işığın qabağını tutmamağa çalışaraq əyildi və daş döşənmiş